# I Fəsil
# NAMİZƏDLİYİN İRƏLİ SÜRÜLMƏSİ

Bələdiyyə üzvlüyünə namizəd irəli sürmək hüququna malik olan subyektlər:

- vətəndaşın özü;
- seçicilərin təşəbbüs qrupu;
- siyasi partiya;
- siyasi partiyaların bloku.

**Bələdiyyə üzvlüyünə namizədə aid tələblər:**

**Bu tələblər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 13-cü və 212-ci maddələrində əks olunmaqla aşağıdakılardan ibarətdir:**

- Azərbaycan Respublikasının vətəndaşı olması;
- seçkilərdə iştirak etmək hüququna malik olması;
- müvafiq seçki dairəsinin ərazisində daimi yaşaması;
- ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğunun olmaması;
- ikili vətəndaşlığının olmaması;
- başqa dövlətlər qarşısında öhdəliyinin olmaması.

**Öz təşəbbüsü ilə namizədliyini irəli sürən vətəndaş dairə seçki komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:**

- bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsinə dair **bildiriş**;
- Seçki Məcəlləsinin 53-cü və 212-ci maddələrinin tələblərinə uyğun tərtib edilmiş və bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü), müvafiq dairənin ərazisində daimi yaşaması, məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə bələdiyyəyə üzv seçiləcəyi halda,

həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə **öhdəlik ərizəsi**;

– namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, həmin səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş **vəkalətnaməsi**;

– namizəd öz ərizəsində siyasi partiyaya mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə **təsdiqedici sənəd.**

**Seçicilərin təşəbbüs qrupunun irəli sürdüyü namizədin sənədlərini dairə seçki komissiyasına təqdim etmək səlahiyyəti olan şəxslər:**

- seçicilərin təşəbbüs qrupunun nümayəndəsi;
- namizədin özü;
- namizədin səlahiyyətli nümayəndəsi.

**Namizədin seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülməsi üçün dairə seçki komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:**

– seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədliyin irəli sürülməsi barədə yığıncağın **protokolu**;

– namizədin irəli sürülməsinə təşəbbüs edilməsi barədə **bildiriş**;

– Seçki Məcəlləsinin 53-cü və 214-cü maddələrinin tələblərinə uyğun tərtib edilmiş bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, o cümlədən tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), müvafiq dairənin ərazisində daimi yaşaması, məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyəyə üzv seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə **öhdəlik ərizəsi**;

– namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş **vəkalətnaməsi;**

– namizəd öz ərizəsində siyasi partiyaya mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə **təsdiqedici sənəd.**

**QEYD:** *Özü və ya seçicilərin təşəbbüs qrupu tərəfindən namizədliyi irəli sürülmüş şəxs ərizəsində siyasi partiya mənsubiyyətinə dair məlumatın daxil edilməsi arzusundadırsa, üzv olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və bu barədə müvafiq seçki komissiyasına bildiriş göndəribsə, bu bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz.*

**Namizədin siyasi partiya tərəfindən irəli sürülməsi**

**Bələdiyyə üzvlüyünə namizəd siyasi partiya tərəfindən irəli sürülürsə:**

bu barədə **qərar** siyasi partiyanın nizamnaməsinə uyğun olaraq qəbul edilir. Belə qərar kollegial qaydada səsvermə yolu ilə qəbul olunur. Namizədin irəli sürülməsi barədə siyasi partiyanın qərarı **protokolla** rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilməlidir:

– hər bir siyasi partiyanın nizamnaməsinə uyğun olaraq rəhbər orqanının iclasında (qurultayda, konfransda, digər rəhbər orqanının iclasında) iştirak etmək üçün qeydə alınmış nümayəndələrin sayı;
– bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi barədə qərar və qərar üzrə səsvermənin nəticələri (lehinə, əleyhinə olanların və bitərəf qalanların sayı);
– bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi barədə qərarın qəbul edilmə tarixi.

**Namizəd siyasi partiya tərəfindən irəli sürülmüşdürsə, aşağıda göstərilən sənədlər siyasi partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin adı ilə birlikdə müvafiq dairə seçki komissiyasına təqdim edilməlidir:**

– siyasi partiyanın qeydə alınması barədə **şəhadətnamənin** notariat qaydasında təsdiq edilmiş **surəti;**
– siyasi partiyanın qüvvədə olan **nizamnaməsinin** notariat qaydasında təsdiq edilmiş **surəti;**
– namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) **qərarı** və müvafiq **iclasın protokolu;**
– hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş **bildiriş;**
– namizədliyi irəli sürülmüş şəxslərin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, o cümlədən tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), müvafiq seçki dairəsinin ərazisində daimi yaşaması, məhkumluğuna, vətəndaşlığına, başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş **razılıq ərizəsi;**
– səlahiyyətli nümayəndələrin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə siyasi partiyanın **qurultayının** (konfransının, rəhbər orqanının iclasının) **qərarı**;
– siyasi partiyanın səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş **vəkalətnamələri;**
– siyasi partiyaların səlahiyyətli nümayəndələrinin **siyahısı.**

**Siyasi partiyalar tərəfindən Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədlər təqdim edilməlidir:**
– siyasi partiyaların səlahiyyətli nümayəndələrinin **siyahısı;**
– maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin **siyahısı;**
– səlahiyyətli nümayəndələrin **razılıq məktubu;**

– maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin **razılıq məktubu.**

**Siyasi partiyaların bloku tərəfindən namizəd irəli sürüldükdə, aşağıda göstərilən sənədlər namizədin adı ilə birlikdə dairə seçki komissiyasına təqdim edilməlidir:**

– siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd irəli sürmək barədə **qərarları** ilə birlikdə müvafiq iclasların **protokolları;**
– siyasi partiyaların blokuna daxil olan siyasi partiya nümayəndələri iclasının (qurultaylarının, konfranslarının) siyasi partiyaların bloku adından namizəd irəli sürülməsi haqqında **qərarı** və müvafiq iclasın **protokolu;**
– hər bir namizədin irəli sürülməsinə dair ayrı-ayrılıqda tərtib edilmiş **bildiriş;**
– siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin notariat qaydasında və ya Mülki Məcəllədə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş **vəkalətnamələri;**
– siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin **siyahısı;**
– bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, o cümlədən tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), müvafiq dairənin ərazisində daimi yaşaması, məhkumluğuna, vətəndaşlığına, başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş **razılıq ərizəsi.**

**Siyasi partiyalar bloku tərəfindən Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədlər təqdim edilməlidir:**

– siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin **siyahısı**;
– maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin **siyahısı**;

- səlahiyyətli nümayəndələrin **razılıq məktubu**;
- maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin **razılıq məktubu**.

**QEYD:** *siyasi partiya, siyasi partiyaların bloku, bu bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri də namizəd kimi irəli sürə bilərlər.*

Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı **arayış** namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə verilir.

**DİQQƏT!**

Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərə **5 gün** müddətində baxılır, namizədin səlahiyyətli nümayəndəsinə və ya seçicilərin təşəbbüs qrupunun nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə namizədin irəli sürülməsinin təsdiq olunub-olunmadığı barədə əsaslandırılmış qərar təqdim edilir.

## II Fəsil

## NAMİZƏDİN MÜDAFİƏSİ ÜÇÜN SEÇİCİ İMZALARININ TOPLANMASI

Öz təşəbbüsü ilə, seçicilərin təşəbbüs qrupu, siyasi partiya və ya siyasi partiyaların bloku tərəfindən irəli sürülən bələdiyyə üzvlüyünə namizədin müdafiəsi məqsədilə seçici imzalarının toplanmasına müvafiq dairə seçki komissiyası tərəfindən namizədlərə və ya onların səlahiyyətli nümayəndələrinə namizədliyin irəli sürülməsini təsdiq edən qərarın təqdim edildiyi gündən başlanılır.

Seçki fondunu formalaşdırmaq üçün xüsusi seçki hesabı yalnız "Azərbaycan Beynəlxalq Bankı" ASC-də və ya onun filiallarında açılmalıdır. Bu filialların mövcud olmadığı seçki dairələrinin ərazisində hesablar "Kapital Bank" ASC-nin filiallarında açılmalıdır. Həmin hesab namizədin qeydiyyatı üçün zəruri olan seçici imzalarının yığılmasına **azı 24 saat qalmış** açılmalıdır. Hər bir namizəd, siyasi partiya, siyasi partiyaların bloku yalnız bir xüsusi seçki hesabı aça bilər.

**İmza toplanmasına dair tələblər:**

Müvafiq seçki ərazisi üzrə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş:

əhalisi 99.999-dan çox olan ərazidə — 150;
əhalisi 49.999-dan çox olan ərazidə — 100;
əhalisi 19.999-dan çox olan ərazidə — 75;
əhalisi 9.999-dan çox olan ərazidə — 50;
əhalisi 4.999-dan çox olan ərazidə — 30;
əhalisi 4.999-dan az olan ərazidə — 15;

seçici imzası toplamalıdır.

**QEYD:** *seçicilərin bələdiyyə üzvlüyünə bir neçə namizədin müdafiəsi üçün imza etmək hüququ vardır.*

**İmza toplanmasında iştirak etmək hüququna malik olan şəxslər:**

1. namizədin özü;
2. namizədin (siyasi partiyanın, siyasi partiyalar blokunun) səlahiyyətli nümayəndələri;
3. 18 yaşına çatmış aktiv seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşı.

**QEYD:** *namizəd, siyasi partiya, siyasi partiyaların bloku seçici imzalarını toplayan şəxslə imza toplanması barədə müqavilə bağlaya bilər. Belə işin haqqı yalnız namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu hesabına ödənilə bilər.*

**İmza toplanmasında iştirak edə bilməzlər:**

1. dövlət orqanları;
2. bələdiyyə qurumları;
3. mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər;
4. əcnəbilər, vətəndaşlığı olmayan şəxslər;
5. xarici hüquqi şəxslər.

**İmza toplanması zamanı qadağandır:**

- imza toplanması prosesində seçiciləri imza atmağa məcbur etmək;
- imza atmağa imkan verməmək;
- seçiciləri hər hansı formada mükafatlandırmaq.

**DİQQƏT!**

Yuxarıda göstərilən hallara əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və namizədin qeydə alınmasından imtina üçün əsas ola bilər.

**Qeydə alınmış namizədin** müdafiəsi üçün seçici imzaları toplanarkən qanun pozuntularına yol verilməsi faktları təsdiqlənərsə, namizədin qeydiyyatı ləğv edilə bilər.

**İmzaların toplanmasına icazə verilən yerlər:**

- tədris müəssisələri;
- yaşayış yerləri;
- seçkiqabağı təşviqat aparılmasının qadağan edilmədiyi digər yerlər.

**Diqqət :** *İmza vərəqələrini götürən namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.*

**QEYD:** *seçici imza vərəqəsində imza edərkən aşağıdakı məlumatları göstərməlidir:*

- *soyadını, adını, atasının adını;*
- *doğum tarixini (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün)*
- *yaşayış yerinin ünvanını;*
- *şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını, nömrəsini və verilmə tarixini;*
- *imza qoyulması tarixini.*

*İmza vərəqəsində seçiciyə aid məlumatları imza toplayan şəxs seçicinin razılığı ilə onun əvəzinə doldura bilər (imza istisna olmaqla). Göstərilən məlumatlar əllə yazılır və onların yayılmamasına təminat verilir.* ***İmza etmək hüququ yalnız seçiciyə məxsusdur.***

**İmza vərəqələrinin rəsmiləşdirilməsi qaydaları:**

– imza toplayan şəxs tərəfindən hər bir imza vərəqəsinin yuxarı sol tərəfində seçici imzalarının toplandığı seçki dairəsinin (ərazisinin) adı və nömrəsi göstərilməlidir;

– şəxsin özü və ya seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülmüş namizəd üçün imza toplandıqdan sonra imza vərəqəsi imza toplayan şəxs və namizəd tərəfindən imzalanır. İmza toplayan şəxs imza vərəqəsinə imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını, nömrəsini və verilmə tarixini göstərir;

– namizəd siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürülübsə, imza toplandıqdan sonra imza vərəqəsi imza toplayan şəxs və siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır. İmza toplayan şəxs imza vərəqəsində imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərir, müvafiq səlahiyyətli nümayəndə isə imza vərə-

qəsinin aşağı sağ küncündə soyadını, adını, atasının adını və imza qoyulması tarixini göstərir;
– namizədin irəli sürülməsinin təşəbbüsçüləri, namizədin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzalarının sayını hesablayır, seçici imzalarının toplanması haqqında yekun protokolunu tərtib edir və imzalayırlar.

**QEYD:** *dairə seçki komissiyasına təqdim edilən imza vərəqələri ardıcıl olaraq* ***nömrələnməli*** *və qovluq formasında* ***səhifələnməlidir.***

## III Fəsil

## NAMİZƏDİN QEYDƏ ALINMASI ÜÇÜN SEÇKİ SƏNƏDLƏRİNİN TƏQDİM EDİLMƏSİ

Namizədin qeydə alınması üçün namizəd, seçicilərin təşəbbüs qrupunun nümayəndəsi və ya namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə **ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək** dairə seçki komissiyasına seçki sənədlərini təqdim edir.

**Təqdim edilən sənədlərin siyahısı:**
– namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan **imza vərəqələri;**
– seçici imzalarının toplanması haqqında yekun **protokolunun 2 nüsxəsi;**
– namizədin öhdəlik ərizəsindəki məlumatlarda **dəyişikliklər barədə bildiriş;**
– namizədin seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi gündən əvvəlki bir illik dövrü əhatə edən gəlirlərinin miqdarı və mənbələri barədə **məlumat;**

– gəlirlər barədə məlumatların alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə **arayış;**
– namizədə məxsus əmlak barədə Seçki Məcəlləsinə 5 saylı əlavəyə uyğun formada tərtib edilmiş **məlumat;**
– seçici imzalarının toplanması üçün sərf edilmiş vəsait haqqında məlumatlar da göstərilməklə, namizədin ilkin **maliyyə hesabatı**.

Dairə seçki komissiyaları imza vərəqələrini onlara əlavə edilməli olan sənədlərlə birlikdə yuxarıda qeyd edilən müddətdə qəbul edir. Bu müddət başa çatanadək təqdim edilən müvafiq sənədlərin qəbul edilməsindən imtina oluna bilməz. Qanunvericiliklə müəyyən edilən müddətdən sonra təqdim olunan imza vərəqələri qanunla müəyyən olunmuş müddətdə verilmiş imza vərəqələrinin doğurduğu hüquqi nəticələri yaratmır. Dairə seçki komissiyası bu halı öz qərarı ilə rəsmiləşdirməlidir.

Seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu dairə seçki komissiyası öz möhrü ilə təsdiqləyir və təqdim olunmuş imza vərəqələrinin sayının seçici imzaları toplanmasının yekunu haqqında protokola uyğunluğunu yoxlayır. Sonra isə onların qəbul edilmə tarixini və vaxtını qeyd edərək, namizədə və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə qəbul edilmiş imza vərəqələrinin sayını, oradakı imzaların sayını göstərməklə, sənədlərin qəbulu barədə yazılı **arayış** verir.

Arayış dairə seçki komissiyasının sədri və üzvlərindən biri, həmçinin sənədləri təqdim edən şəxs tərəfindən imzalanıb, dairə seçki komissiyasının möhrü ilə təsdiqlənir. Arayışın bir nüsxəsi seçki sənədlərini təqdim edən şəxsə verilir.

## IV Fəsil

## NAMİZƏDİN DAİRƏ SEÇKİ KOMİSSİYASI TƏRƏFİNDƏN QEYDƏ ALINMASI

Dairə seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra **7 gün müddətində** namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir. Siyasi partiyanın, siyasi partiyalar blokunun irəli sürdüyü namizəd qeydə alındıqda dairə seçki komissiyası qeydiyyat barəsində qərarında namizədin müvafiq siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürüldüyünü göstərir. Qeydiyyat və ya qeydiyyatdan imtina barədə qərarda onun qəbul olunduğu tarix və vaxt göstərilir.

Namizədin qeydə alınıb-alınmaması barədə qərarın surəti dairə seçki komissiyası tərəfindən həmin **qərarın qəbul edildiyi gündən etibarən 1 gün müddətində** namizədə, namizədlər irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilməli, qeydiyyatdan imtina olunubsa, həm də bunun əsasları göstərilməlidir.

**QEYD**: *bir şəxsin birdən artıq bələdiyyə üzrə namizəd kimi qeydə alınmasına yol verilmir.*

**Qeydiyyatdan imtina üçün aşağıdakılar əsas ola bilər:**

- namizədin qeydə alınması üçün tələb edilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;
- namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması;
- dövlət orqanları, bələdiyyə qurumları və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər imza topladıqda;
- imza toplanması prosesində seçicilər imza atmağa məcbur edilmişdirsə;

- seçiciyə imza atmağa imkan vermədikdə və ya seçicini hər hansı formada mükafatlandırdıqda;
- namizədin təqdim etdiyi məlumatlar doğru olmadıqda və ya onların etibarsızlığı əhəmiyyətli xarakter daşıdıqda;
- Seçki Məcəlləsi ilə müəyyən olunmuş müddətdən əvvəl seçkiqabağı təşviqat aparılması faktı müəyyənləşdirildikdə;
- seçicilərin ələ alınması faktı aşkarlandıqda;
- seçicilərə pul vəsaiti, hədiyyələr və digər qiymətli materiallar verildikdə (döş nişanları, yapışqanlı nişanlar, plakatlar və nominal dəyərə malik olan digər təşviqat materialları istisna edilməklə);
- seçiciləri səsvermənin nəticəsindən asılı olaraq mükafatlandırdıqda və ya belə mükafatlandırmanı vəd etdikdə;
- malların güzəştli satışını keçirdikdə, hər hansı malı (çap materialları istisna olmaqla) pulsuz verdikdə;
- əvəzsiz və ya güzəştli şərtlərlə xidmətlər göstərdikdə.

Bələdiyyə üzvlüyünə qeydə alınmış hər bir namizədə dairə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada **qeydiyyat vəsiqəsi** verilir.

**QEYD:** *hər bir qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun məntəqə seçki komissiyası işə başladığı andan səsvermənin nəticələri rəsmiləşdirilənədək məntəqə seçki komissiyasına bir müşahidəçi təyin etmək hüququ vardır. Belə müşahidəçiyə dairə seçki komissiyası* ***müvafiq lövhəcik*** *verir (Seçki Məcəlləsinin 36.6-cı maddəsi).*

Qeydə alınmış namizəd və ya namizədi qeydə alınmış siyasi partiya, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri və yaxud onun vəkil edilmiş şəxsləri seçki komissiyalarının fəaliyyətini izləyə bilər:

- seçki komissiyasının iclaslarını;
- məntəqə və dairə seçki komissiyalarında seçki bülletenləri ilə işin aparılmasını;

- seçici siyahıları ilə işin aparılmasını;
- səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri ilə işin aparılmasını;
- səslərin hesablanmasını;
- səsvermənin nəticələri və yekunları haqqında protokollarla müvafiq işin aparılmasını;
- seçki komissiyalarında digər seçki hərəkətlərinin həyata keçirilməsini.

**DİQQƏT!**

Seçici siyahılarının, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələrinin, seçki bülletenlərinin və imza vərəqələrinin surəti tələb oluna bilməz.

- Müvafiq seçki komissiyalarının iclaslarında iştirak etmək və seçki sənədləri ilə tanış olmaq üçün qeydə alınmış namizədin seçki komissiyasından əlavə icazə alması və ya müşahidəçi qismində qeydiyyatdan keçməsi tələb olunmur.
- Müvafiq seçki komissiyası qeydə alınmış namizədin seçki sənədləri ilə iş aparılan və ya səslər hesablanan yerə sərbəst daxil olmasını təmin edir.
- Müvafiq seçki komissiyası qeydə alınmış hər bir namizədi və ya onun səlahiyyətli nümayəndəsini seçki sənədləri ilə işin və komissiyanın iclaslarının vaxtı haqqında məlumatlandırır.
- Seçki komissiyaları vətəndaşlara qeydə alınmış namizədlərin hər birinin tərcümeyi-halı, qeydiyyatının nəticələri, namizədlərin siyahısı haqqında məlumat verirlər.
- Səsvermə günü səsvermə otağında olarkən qeydə alınmış namizədin Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada, onun statusunu müəyyən etməyə imkan verən, üzərində soyadı, adı, atasının adı, vəzifəsi və fotoşəkli olan lövhəciyi olmalıdır.

- Qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahısı səsvermə gününə azı 20 gün qalmış dairə seçki komissiyaları tərəfindən müvafiq dövri nəşrlərdə dərc edilir.

## V Fəsil

## QEYDƏ ALINMIŞ BƏLƏDİYYƏ ÜZVLÜYÜNƏ NAMİZƏDİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ, QADAĞALAR

**Hüquqlar:**

- dövlət vəzifələrində olan qeydə alınmış namizədlərin yalnız öz vəzifələrini icra etməkdən azad olunduğu vaxtda seçkiqabağı təşviqat aparmaq hüququ vardır;
- qeydə alınmış namizədin işlədiyi, qulluq etdiyi, oxuduğu dövlət orqanının, təşkilatının müdiriyyəti, hərbi hissənin komandiri dairə seçki komissiyasında namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək ərizəsində və ya raportunda göstərilən müddət üçün onu işdən, tədrisdən, xidmətdən ödənilməyən məzuniyyət verilməsi əsasında istənilən gün və vaxt azad etməlidir;
- dairə seçki komissiyasında qeydə alınmış namizəd qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının vəzifəli şəxslərinin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla və ya öz razılığı olmadan başqa işə, başqa yerdə işləməyə keçirilə, habelə ezamiyyətə göndərilə bilməz;
- namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə müvafiq prokurorun razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilə və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz;
- qeydə alınmış namizəd müvafiq dairə seçki komissiyasından hüdudları, ünvanı və telefonları göstərilməklə seçki

məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını ala bilər;

- qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının seçki komissiyasının hərəkəti (hərəkətsizliyi) nəticəsində ona dəymiş zərərin ödənilməsi məqsədilə Mülki Məcəlləyə uyğun olaraq məhkəməyə müraciət edə bilər;
- dairə və məntəqə seçki komissiyalarının qəbul etdiyi qərarların və müvafiq seçki sənədlərinin surətlərini almaq;
- qeydə alınmış namizədin 3-ə qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır;
- Mərkəzi Seçki Komissiyasının tərkibinə bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən, dairə seçki komissiyasının tərkibinə isə dairənin ərazisindən bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən siyasi partiyalar, siyasi partiyaların blokları **bir məşvərətçi səs hüquqlu üzv** təyin edə bilərlər.

**QEYD:** *dövlət orqanlarında işləyən və ya bələdiyyə qulluğunda olan, eləcə də kütləvi informasiya vasitələrində əmək və mülki hüquq müqaviləsi əsasında işləyən qeydə alınmış namizədlər seçki kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad olunurlar (**bu qayda bələdiyyə üzvlərinə şamil edilmir**).*

**YADDA SAXLA!**

- Seçki Məcəlləsinin tələbinə görə **irəli sürülmüş namizəd** müvafiq seçki komissiyasını yazılı şəkildə xəbərdar etməklə, namizəd olmağa dair razılıq ərizəsini istənilən vaxt geri götürə bilər. Seçki komissiyasına təqdim edilmiş bu yazılı xəbərdarlıq sonradan geri götürülə bilməz.
- **Qeydə alınmış namizəd** səsvermə gününə azı 10 gün qalmış müvafiq seçki komissiyasına yazılı şəkildə müraciət edərək namizədliyini geri götürə bilər.

Daxil olmuş müraciət əsasında müvafiq seçki komissiyası **1 gün müddətində qərar** qəbul edir.

**Namizəd aşağıdakı şərtlərə riayət etməlidir:**

- mətbuat azadlığına hörmət bəsləmək;
- öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, siyasi partiyaların (siyasi partiyalar bloklarının) seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;
- seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;
- seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;
- seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;
- seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;
- seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;
- səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək, onlarla əməkdaşlıq etmək;
- səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;

- seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;
- seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;
- seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;
- hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;
- seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək;
- dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;
- təzyiq göstərməklə və ya bəxşiş təklif etməklə, yaxud digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;
- təzyiq göstərməklə və ya bəxşiş təklif etməklə, yaxud digər qanunazidd üsullarla seçiciləri öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya etməməyə məcbur etməmək;
- heç bir vəzifəli şəxsin namizədin dəstəklənməsinə və ya dəstəklənməməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək;
- qeydə alınmış digər namizədlərin seçki kampaniyası zamanı öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;
- qeydə alınmış digər namizədlərin, siyasi partiyaların, seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləmək;
- seçicilərlə azad ünsiyyətin yaradılmasında qeydə alınmış digər namizədlərə mane olmamaq.

**Qadağalar**:

- qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının seçkiqabağı proqramlarında, yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr;
- seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə;
- əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqat;
- seçkiqabağı təşviqatın aparılmasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydalarının pozulması;
- dövlət vəzifələrində olan qeydə alınmış namizədlərin öz vəzifə mövqelərindən üstünlük əldə etmək üçün istifadə etməsi;
- vəzifəli şəxslər, teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyalarında işləyən jurnalistlər və yaradıcı işçilər qeydə alınmış namizəddirlərsə, onlara seçkilərin gedişinin kütləvi informasiya vasitələri ilə işıqlandırılmasında iştirak etmək;
- göstərilən şəxslərin və təşkilatların fiziki və hüquqi şəxslərə, seçicilərə maddi və maliyyə, yaxud digər xidmətlər göstərmək təklifi ilə müraciət etməsi;
- namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin adından və onların müdafiəsi üçün fiziki və hüquqi şəxslərin xeyriyyə fəaliyyəti ilə məşğul olması.

# QEYD ÜÇÜN